AMADA

STAY CLEAN



# AMADA-nın 2023-cü il üçün hesabatı

# Antidopinq siyasətində yeni nəfəs: Peşəkarlıq, məsuliyyət və rəqabətlilik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: İdman hər bir ölkənin ictimai həyatının önəmli bir hissəsidir. Bəzi ölkələrdə bu, prioritet sayılır, Azərbaycandakı kimi. Bəzi ölkələrdə sayılmır. Amma mən hesab edirəm ki, biz düzgün yoldayıq. Çünki sağlam həyat tərzinin təbliğ edilməsi hər bir ölkə üçün önəmli olmalıdır.



# Rəhbərlik

Oktyabr ayında "Azərbaycan Milli Antidopinq Agentliyi" (AMADA) publik hüquqi şəxsin yeni tərkibdə Müşahidə Şurasının ilk iclası keçirilib. İclasda Milli Məclisin deputatı Nigar Arpadarai şuranın sədri seçilib. Həmçinin Agentliyin Nizamnaməsinin 4.4.2-ci bəndinə əsasən, Təhminə Tağı-zadə Azərbaycan Milli Antidopinq Agentliyinin icraçı direktoru təyin edilib.

AMADA öz fəaliyyətini effektivlik, sağlam və təhlükəsiz əmək şəraiti prinsipləri əsasında qurub. Bunun üçün yeni tələblər və imkanları nəzərə alaraq qurumun strukturu təkmilləşdirilir. AMADA üçün əməkdaşların peşəkarlığının artırılması prioritetdir. Agentliyin insan resursları strategiyasının əsası təlim və bacarıqların inkişafı, rəhbərlik qabiliyyətlərinin artırılması, habelə səmərəli iş mühiti, rahat iş şəraiti və adekvat maaş prinsiplərinə əsaslanır. Məhz bu prinsiplərə sadiq olduğu üçün AMADA iş üçün daim cəlbedici yerdir.




TEST ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
LOGİSTİKA ÜZRƏ MENECER
DOPİNQ NƏZARƏTİ ÜZRƏ MENECER
HÜQUQ ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
HÜQUQŞÜNAS (2)
TƏHSİL ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
TƏHSİL PROQRAMLARI ÜZRƏ MENECER
DƏYƏRLƏRLƏ ƏSASLANAN TƏHSİL ÜZRƏ MENECER
MEDİA VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
RƏQƏMSAL MARKETİNQ ÜZRƏ MENECER
LAYİHƏLƏR ÜZRƏ KREATİV MENECER
ELM ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
TİBB VƏ ELM ÜZRƏ MENECER
ELM LAYİHƏLƏRİ ÜZRƏ MENECER
MALİYYƏ VƏ İNSAN RESURSLARI ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
MÜHASİB
İNSAN RESURSLARI ÜZRƏ MENECER
TƏHQİQAT ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
TƏHQİQAT ÜZRƏ MENECER
MƏLUMAT TOPLANMASI VƏ TƏHLİLİ ÜZRƏ MENECER
İNFORMASİYA TEXNOLOGİYALARI ŞÖBƏSİ
ŞÖBƏ MÜDİRİ
SİSTEM VƏ ŞƏBƏKƏ İNZİBATÇISI
PROQRAM MÜHƏNDİSİ

# İdmançı məsləhətçi komissiyası

AMADA üçün idmançıların fikirləri hər zaman əhəmiyyətlidir. Bunun üçün də idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. İdmançıların antidopinq siyasətində iştirakı, AMADA-nın fəaliyyətində idmançıların təmsil edilməsi və bu prosesə töhfələrin verilməsi məqsədilə 2020-ci ildə İdmançı məsləhətçi komissiyası təsis olunub.

Komissiyanın vəzifələri əsasən, missiyanın dəstəklənməsi, idmançılarla əlaqədar xüsusi layihələrin idarə edilməsi, idmançılar və AMADA arasında əlaqələndirici funksiyanın yerinə yetirilməsi və Komissiyanın müxtəlif antidopinq tədbirlərində təmsil edilməsindən ibarətdir.

İdmançı məsləhətçi komissiyası öz fəaliyyəti ilə təmiz idman dəyərlərinin qorunmasına mühüm töhfələr verir və idmançıları AMADA-da layiqincə təmsil edir.



# AMADA İdmançı məsləhətçi komissiyası



**İlham Zəkiyev**
Paracüdo (sədr)



**Hacı Əliyev**
Güləş (sədr müavini)



**Viktoriya Sidorenko**
Velosiped idmanı



**Aynur Məmmədova**
Parataekvondo



**Fəridə Əliyeva**
Karate



**Fuad Qurbanov**
Atıcılıq



**Kamran Şahsuvarlı**
Boks




**Nazim Babayev**
Atletika



**Rəsul Çunayev**
Güləş



**Rüstəm Orucov**
Cüdo



**Ruslan Abışov**
Futbol



**Siyana Vasileva**
Gimnastika



# Beynəlxalq fəaliyyət

# Beynəlxalq fəaliyyət

## Ölkə təmsilçiliyi

**Ümumdünya Antidopinq Agentliyi (WADA)**
**Avropa Şurası**
**UNESCO**

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Agentlik milli antidopinq təşkilatı kimi hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

**AMADA Azərbaycanın nümayəndə heyəti kimi təmsilçilik**

- Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu (T-DO)
- Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)
- UNESCO-nun Tərəflərin Konfransı

## Beynəlxalq görüşlər

AMADA təmiz idmana sadiqdir və beynəlxalq tədbirlərdə, müzakirələrdə fəal iştirak etmək, öz təcrübəsini paylaşmaqla qlobal tərəfdaşlığın qurulmasında mühüm rol oynayır. İl ərzində AMADA müxtəlif görüşlərdə, simpoziumlarda, hökumətlərarası görüşlərdə və monitorinq səfərlərində iştirak edib, beynəlxalq işçi görüşləri keçirib və beynəlxalq təşkilatların işlərinə töhfə verib.

# Beynəlxalq görüşlər

## Mart

Lozanna şəhərində Milli Antidopinq Təşkilatları İnstitutunun (iNADO) seminarı

Lozanna şəhərində "Antidopinq Sahəsinin İdarəçilik və İcraetmə Mərhələlərində Gender Bərabərliyinin Tənzimlənməsi" mövzusunda panel müzakirələr

WADA-nın Lozannada keçirilən İllik Simpoziumu

## Aprel

Norveç antidopinq təşkilatının Beynəlxalq əlaqələr və tibb məsələləri departamentinin direktoru Martin Holmlund Lauesen ilə görüş

Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi məqsədilə Avropa Şurası tərəfindən təsis edilmiş "Antidopinqdə Gender Bərabərliyi üzrə Komitə"nin 5-ci görüşü

## May

Moldovanın Antidopinq Agentliyi ilə ikitərəfli elmi əməkdaşlığın genişləndirilməsi məqsədilə görüş

## İyun

Polşanın paytaxtı Varşavada WADA-nın müstəqil Araşdırma və Təhqiqatlar Agentliyinin hüquq-mühafizə, polis və gömrük orqanlarının, milli antidopinq təşkilatlarının nümayəndələri üçün seminarı

Koreya Respublikasının İnçxon şəhərində WADA-nın 2023-cü il Terapevtik İstifadə üçün İstisna İcazəsi Simpoziumu

## Sentyabr

Belçikada Gent Universitetinin nəzdində fəaliyyət göstərən və WADA tərəfindən akkreditə olunan Dopinq Nəzarəti Laboratoriyasının (DoCoLab) 50 illik yubileyinə həsr olunmuş simpozium

## Oktyabr

UNESCO-nun mənzil-qərargahında İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyaya Tərəf Ölkələrin 9-cu Konfransı

Riqada Avropa Şurasının təşkilatçılığı ilə antidopinq sahəsində ədalətli məhkəmə üzrə plenar sessiya

Parisdə Avropa Şurası Antidopinq Konvensiyasının (T-DO) Monitorinq Qrupunun Elm üzrə Məşvərət Qrupunun (T-DO SCI) iclası

## Noyabr

Vyanada Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (Təhsil üzrə Məşvərət Qrupunun) görüşü

Praqada Karl Universitetinin Bədən tərbiyəsi və idman fakültəsinin katibi Radim Zelenko ilə görüş

Avropa Şurasının Antidopinq Konvensiyası (T-DO) Monitorinq Qrupunun 57-ci iclası

Strasburq şəhərində Ümumdünya Antidopinq Agentliyi (WADA) üzrə Ad Hoc Avropa Komitəsinin (CAHAMA) 62-ci iclası



# Təhsil və maarifləndirmə

# Təhsil

Dopinqin qarşısının alınmasında maarifləndirmənin müstəsna xidmətləri var. AMADA idmançıları, idmançının köməkçi heyətini, məşqçiləri, tibb işçilərini və digər məsul şəxsləri maarifləndirməklə antidopinq qaydalarına riayət etməyin vacibliyini, məsuliyyəti və təmiz idman dəyərlərinin qorunmasını ehtiva etmiş olur.

## Maarifləndirmə aşağıdakı mövzuları əhatə edir:

- Təmiz idman dəyərləri
- İdmançılar, idmançı köməkçi heyətinin (İKH) hüquq və vəzifələri
- Ciddi məsuliyyət prinsipi
- Nümunə toplanma prosesi
- Antidopinq qayda pozuntuları
- Dopinq istifadəsinin nəticələri, məsələn, fiziki və əqli sağlamlığa təsir, sosial və iqtisadi təsir
- Sanksiyalar
- Qadağan edilmiş siyahı
- Narkotiklərlə mübarizə, narkotiklərin zərərləri, onun törətdiyi fəsadlar
- Qida əlavələrinin istifadəsi riskləri
- Dərman istifadəsi və Terapevtik İstifadə üçün İstisnalar
- Qeydiyyata alınmış test qrupuna və test qrupuna daxil edilmiş idmançıların məkan məlumatının təmin edilməsi
- “Susma!” məxfi məlumat platforması

**Ölkəmizdə antidopinq siyasətini həyata keçirən AMADA idmançıların, İKH-nin, eləcə də cəmiyyətin antidopinq sahəsində məlumatlandırılmasını təmin edir. Məlumatlandırmanın əsasında idman ictimaiyyətinə və cəmiyyətə dopinqin insan sağlamlığı üçün zərərləri və təhlükələri haqqında geniş məlumat vermək, həmçinin idmanda dürüstlüyü və ədaləti qorumaq dayanır. AMADA antidopinq sahəsində təhsil və maarifləndirmə proqramlarını Ümumdünya Antidopinq Məcəlləsinin “Təhsil üzrə Beynəlxaq Standart”ına uyğun olaraq həyata keçirir.**

**Müasir idmanın inkişafında onun dəyərlərinə ciddi təsir edən dopinqə qarşı mübarizə dünyada getdikcə sərtləşir. Bu, sirr deyil ki, bəzən medal və rekordların arxasınca gedən idmançılar sağlam rəqabətlə qələbə əldə edə bilmədikdə müxtəlif neqativ vasitələrdən, o cümlədən dopinqdən istifadə edirlər. Dopinq idman mübarizəsində qeyri-bərabər şərait yaratmaqla yanaşı, həm də sağlamlığın ciddi şəkildə pisləşməsinə və hətta ölüm hallarına da səbəb olur.**

Gənclər və idman naziri Fərid Qayıbov

# Təşviqat proqramı

AMADA milli və beynəlxalq səviyyəli idman yarışlarında mütəmadi olaraq antidopinq təşviqat proqramları təşkil edir. Proqram idmançıların və idmançı köməkçi heyətinin antidopinq sahəsində biliklərinin daha da artırılması məqsədini daşıyır. Belə ki, idmançıların çox olduğu yerdə onları cəlb edən “Təmiz idman” şüarı altında stend quraşdırılır. Maarifləndirmənin daha effektiv həyata keçirilməsi məqsədilə iştirakçılar planşet üzərində antidopinq mövzularına dair test suallarını cavablandırır və müxtəlif interaktiv oyunlarda iştirak edirlər. Suallara düzgün cavab verən və fəal iştirakçılara AMADA tərəfindən müxtəlif təbliğat xarakterli hədiyyələr təqdim edilir. Həmçinin tədbir iştirakçılarına antidopinq maarifləndirmə materialları və bukletlər paylanılır. AMADA təşviqat proqramı vasitəsilə təmiz idman dəyərlərini geniş ictimaiyyətin diqqətinə çatdırmış olur.

# Məsul şəxslər şəbəkəsi

2023-ci ildə AMADA-nın Təhsil şöbəsi Məsul şəxslər üçün antidopinq maarifləndirmə proqramı üzrə silsilə təlimlər təşkil edib. Bu təlimlərin sonunda biliklərin mənimsənilməsi səviyyəsini yoxlamaq məqsədilə Məsul şəxslər onlayn qiymətləndirmə sorğusundan keçiblər. AMADA-nın idman federasiyalarının Məsul şəxsləri ilə sıx əməkdaşlığı bütün antidopinq məlumatlarının və yeniliklərinin idmançılara və İKH-yə düzgün və çevik çatdırılmasında köməklik göstərir. Mütəmadi olaraq AMADA tərəfindən Məsul şəxslərə antidopinq maarifləndirmə materialları təqdim edilir.

# İdmançı məsləhətçi komissiyası

Antidopinq siyasətinin təbliğində və təmiz idman dəyərlərinin təşviqində idmançıların iştirakı mühüm rol oynayır. AMADA-nın formalaşdırdığı İdmançı məsləhətçi komissiyası Agentlik ilə idmançılar arasında əlaqələndirici rolunu oynayır. Belə ki, komissiya idmançılarla əlaqədar olan məsələlərdə AMADA ilə əməkdaşlıq edir. AMADA komissiya üzvləri arasında mütəmadi olaraq maarifləndirmə aparır. Komissiya üzvləri ilə müzakirələr zamanı idmançıların fikir və ehtiyacları nəzərə alınır. Həmçinin komissiya üzvləri AMADA-nın təmiz idman təbliğatında həmişə fəal rol oynayırlar.

> **İdmanda dopinqdən qorunmağın yeganə ən yaxşı yolu təhsildir. Bəli, dopinqi aşkarlamaq və idmançının cəzalandırılması üsulları var. Lakin bunun qarşısını almaq da çox vacibdir.**
>
> WADA-nın prezidenti Vitold Banka

# Antidopinq təhsil proqramının hədəf qrupları

- QTQ-yə daxil olan idmançılar
- Beynəlxalq səviyyəli idmançılar
- Milli səviyyəli idmançılar
- Azyaşlı idmançılar
- Gənc idmançılar
- Para atletlər
- Sanksiyadan qayıtmış idmançılar
- İdman məktəblərinin şagirdləri
- İdman klublarının üzvləri
- Regionlarda idman cəmiyyətlərinin üzvləri

## Seminar

**52**

- İdmançı: 1102
- Məşqçi: 83
- Tibb heyəti: 23

## Vebinar

**17**

- İdmançı: 338
- Məşqçi: 15

## Təbliğat

**6**

- İştirakçı: 1200

## Tədbir

**5**

- İştirakçı: 251

ADEL

ADEL (International level athlete AZE): 224
ADEL (International level athlete ENG): 80

**Ümumi iştirakçı sayı**

**3316**

# III AVROPA OYUNLARI

İyunun 21-dən iyulun 2-dək Polşanın Krakov şəhərində təşkil olunan III Avropa Oyunlarında ölkəmizi təmsil edən nümayəndə heyəti üçün AMADA-nın Təhsil şöbəsi tərəfindən geniş maarifləndirmə proqramı həyata keçirilib. Proqram çərçivəsində idmançılar və onları müşayiət edən heyət üçün silsilə təlimlər təşkil olunub. Bu təlimlərdə antidopinq ilə bağlı bütün vacib məlumatlar onların diqqətinə çatdırılıb. AMADA idmançılar və onları müşayiət edən heyət üçün maarifləndirmə proqramı çərçivəsində antidopinq təlim kursu da təşkil edib. III Avropa Oyunlarında iştirak edən idmançılar və onları müşayiət edən şəxslər bu təlim kursundan müvəffəqiyyətlə keçərək AMADA tərəfindən sertifikat əldə ediblər. Bu silsilə tədbirlərin təşkilində AMADA-nın əsas məqsədi idmançılarımızın III Avropa Oyunlarında ölkəmizi layiqincə təmsil etməsinə, onların ədalətli idman prinsiplərinə sadiqlik nümayiş etdirməsinə, habelə ölkəmizin idman nüfuzunun qorunmasına töhfə vermək olub.

Qırx səkkiz ölkədən 7000-ə yaxın idmançının çıxış etdiyi III Avropa Oyunlarında Azərbaycan yığması da təmsil olunub. Polşaya 101 idmançı ilə yollanan millimiz 11 medal qazanıb. Bunun 3-ü qızıl, 2-si gümüş və 6-sı bürünc əyarlıdır. Komandamız ümumi hesabda isə 24-cü yeri tutub.

# Tədbirlər planı 2023
# Seminarlar

| Seminarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 1.QTQ-yə daxil olan idmançılar üçün antidopinq maarifləndirmə (atletika) | 30.01.2023 | İdmançı: 1 |
| 2.“Araz-Naxçıvan” PFK-nın idmançıları və İKH üçün antidopinq maarifləndirmə | 25.01.2023 | İdmançı: 18<br>İKH: 6 |
| 3.“Araz-Naxçıvan” PFK-nın U-15 və U-16 komandalarının idmançıları və İKH üçün antidopinq maarifləndirmə | 03.02.2023 | İdmançı: 16<br>Məşqçi: 3 |
| 4.Azərbaycan Atıcılıq Federasiyasının gənc idmançıları və İKH üçün antidopinq maarifləndirmə | 15.02.2023 | İdmançı: 32<br>Məşqçi: 1 |
| 5.“Şamaxı” FK-nın U-16 komandası üçün antidopinq maarifləndirmə | 16.02.2023 | İdmançı: 20<br>Məşqçi: 3 |
| 6.“Sumqayıt” FK-nın U-15, U-16, U-17, U-19 komandaları üçün antidopinq maarifləndirmə | 17.02.2023 | İdmançı: 20<br>Məşqçi: 1 |
| 7.“Zirə” FK-nın U-15, U-16, U-17, U-19 komandaları üçün antidopinq maarifləndirmə | 20.02.2023 | İdmançı: 50 |
| 8.Azərbaycan Ağırlıqqaldırma Federasiyasının idmançıları (böyüklər, gənclər (kişilər və qadınlar) və idmançının köməkçi heyəti, yeniyetmələr (oğlanlar və qızlar) və İKH üçün antidopinq maarifləndirmə | 02.03.2023 | İdmançı: 24<br>Tibb heyəti: 2<br>Məşqçi: 6<br>Federasiya nümayəndəsi: 2 |
| 9.Azərbaycan Basketbol Federasiyasının U-16 (oğlanlar) komandasının idmançıları üçün antidopinq maarifləndirmə | 06.03.2023 | İdmançı: 13 |
| 10.“Səbail FK-nın idmançıları (əsas heyət) üçün antidopinq maarifləndirmə seminarı | 07.03.2023 | İdmançı: 20 |

| Seminarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 11. Azərbaycan Güləş Federasiyasının yeniyetmə idmançıları üçün antidopinq maarifləndirmə | 09.03.2023 | İdmançı: 19 |
| 12. Azərbaycan Badminton Federasiyasının azyaşlı idmançıları üçün maarifləndirmə | 10.03.2023 | İdmançı: 13 |
| 13. Azərbaycan Basketbol Federasiyasının U-16 (qızlar) komandasının idmançıları və İKH üçün antidopinq maarifləndirmə | 13.03.2023 | İdmançı: 18<br>Məşqçi: 1 |
| 14.QTQ-yə daxil olan idmançılar üçün antidopinq maarifləndirmə (para cüdo) | 28.03.2023 | İdmançı: 1<br>Valideyn: 1 |
| 15. Azərbaycan Cüdo Federasiyasının qadınlardan ibarət gənc idmançıları üçün antidopinq maarifləndirmə | 05.04.2023 | İdmançı: 14 |
| 16. QTQ-yə daxil olan idmançılar üçün antidopinq maarifləndirmə (parakarate) | 13.04.2023 | İdmançı: 1 |
| 17. Azərbaycan Atletika Federasiyasının böyük və gənc idmançıları üçün antidopinq maarifləndirmə | 13.04.2023 | İdmançı: 38<br>Məşqçi: 3 |
| 18. Naxçıvan MR-də fəaliyyət göstərən idman federasiyaları və idman klublarının məşqçi-müəllim və idmançıları, Naxçıvan Dövlət Dövlət Universitetinin məşqçilik ixtisası üzrə təhsil alan tələbələri üçün antidopinq maarifləndirmə | 15.04.2023 | İdmançı: 64<br>Məşqçi: 7 |
| 19. Yeniyetmə cüdoçulardan ibarət Azərbaycan yığma komandası üçün antidopinq maarifləndirmə | 17.04.2023 | İdmançı: 24<br>Məşqçi: 2<br>Həkim: 1 |
| 20.QTQ-yə daxil olan idmançılar üçün antidopinq maarifləndirmə (kikboksinq) | 25.04.2023 | İdmançı: 1 |
| 21. Azərbaycan Boks Federasiyasının kişilərdən ibarət yığma komandasının idmançıları üçün antidopinq maarifləndirmə | 26.04.2023 | İdmançı: 11 |

| Seminarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 22. Azərbaycan Boks Federasiyasının qadınlardan ibarət (yeniyetmə, gənc qızlar və qadınlar) yığma komandasının idmançıları üçün antidopinq maarifləndirmə | 27.04.2023 | İdmançı: 35<br>Həkim: 1<br>Məşqçi: 4 |
| 23. Azərbaycan Qılıncoynatma Federasiyasının idmançıları (yeniyetmələr) üçün maarifləndirmə | 28.04.2023 | İdmançı: 14 |
| 24. "Qarabağ" FK-nın idmançıları və idmançının (əsas heyət) köməkçi heyəti üçün maarifləndirmə | 29.04.2023 | İdmançı: 25<br>Məşqçi: 4<br>Həkim: 2 |
| 25. "Kəpəz" PFK-nın idmançıları və idmançının (əsas heyət) köməkçi heyəti üçün maarifləndirmə | 03.05.2023 | İdmançı: 18<br>Məşqçi: 1 |
| 26. QTQ-yə daxil olan idmançılar üçün (üzgüçülük) maarifləndirmə | 16.05.2023 | İdmançı: 1<br>Məşqçi: 1<br>Valideyn: 1 |
| 27. "Bali-2023" Dünya Çimərlik Oyunlarında iştirakı nəzərdə tutulan idmançılar və İKH üçün maarifləndirmə | 19.05.2023 | İdmançı: 9<br>Məşqçi: 1 |
| 28. AFFA tibb heyəti üçün maarifləndirmə | 23.05.2023 | İdmançı: 12 |
| 29. Azərbaycan Qılıncoynatma Federasiyasının idmançıları (gənclər) üçün maarifləndirmə | 23.05.2023 | İdmançı: 20 |
| 30. TQ-yə daxil olan idmançılar üçün (karate) maarifləndirmə | 25.05.2023 | İdmançı: 2 |
| 31. Azərbaycan Sambo Federasiyasının idmançıları (gənclər) üçün maarifləndirmə | 26.05.2023 | İdmançı: 22<br>Məşqçi: 2 |
| 32. Azərbaycan Gimnastika Federasiyasının idmançıları üçün (idman, batut, aerobika) maarifləndirmə | 07.06.2023 | İdmançı: 41 |
| 33. Azərbaycan Gimnastika Federasiyasının idmançıları üçün (bədii) maarifləndirmə | 08.06.2023 | İdmançı: 25<br>Məşqçi: 8 |
| 34. Azərbaycan Gimnastika Federasiyasının idmançıları üçün (akrobatika) maarifləndirmə | 08.06.2023 | İdmançı: 15 |

| Seminarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 35. Azərbaycan Qılıncoynatma Federasiyasının idmançıları (böyüklər) üçün maarifləndirmə | 09.06.2023 | İdmançı: 5 |
| 36. Azərbaycan Üzgüçülük Federasiyasının idmançıları üçün maarifləndirmə | 10.06.2023 | İdmançı: 27<br>Məşqçi: 3 |
| 37. Azərbaycan Ağırlıqqaldırma Federasiyasının idmançıları üçün maarifləndirmə | 22.06.2023 | İdmançı: 22<br>Məşqçi: 4<br>Tibb heyəti: 2 |
| 38. Azərbaycan Stolüstü Tennis Federasiyasının idmançıları üçün maarifləndirmə | 22.06.2023 | İdmançı: 14 |
| 39. Para-boccia idman növünün təmsilçiləri üçün maarifləndirmə | 23.06.2023 | İdmançı: 9<br>Məşqçi: 1<br>Menecer: 4 |
| 40. Para güllə atıcılığı idman növünün idmançıları üçün maarifləndirmə | 24.06.2023 | İdmançı: 5<br>Məşqçi: 1 |
| 41. Azərbaycan Kikboksinq Federasiyasının idmançıları üçün maarifləndirmə | 25.06.2023 | İdmançı: 5<br>Məşqçi: 2 |
| 42. Azərbaycan Karate Federasiyasının idmançıları üçün maarifləndirmə | 06.07.2023 | İdmançı: 14<br>Məşqçi: 1 |
| 43. Para-taekvondo, Para-cüdo (qızlar) | 11.07.2023 | İdmançı: 12 |
| 44. Azərbaycan Güləş Federasiyasının idmançıları üçün (yunan-Roma, böyüklər) maarifləndirmə | 12.07.2023 | İdmançı: 9 |
| 45. Azərbaycan Güləş Federasiyasının qadın idmançıları üçün (böyüklər və gənclər) maarifləndirmə | 03.08.2023 | İdmançı: 10<br>Məşqçi: 1 |
| 46. Azərbaycan Taekvondo Federasiyası idmançıları üçün maarifləndirmə | 18.08.2023 | İdmançı: 6 |
| 47. "Qarabağ" FK-nın U-15, U-16, U-17, U-19 komandaları üçün maarifləndirmə | 17.11.2023 | İdmançı: 75<br>Məşqçi: 10 |

| Seminarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 48. Azərbaycan Triatlon Federasiyasının idmançıları üçün maarifləndirmə | 21.09.2023 | İdmançı: 12<br>Məşqçi: 1<br>Mətbuat xidməti: 1 |
| 49. Taekvondo federasiyasının idmançıları üçün antidopinq maarifləndirmə maarifləndirmə | 21.11.2023 | İdmançı: 42<br>Məşqçi: 1 |
| 50.“Sabah” FK-nın U-15, U-16, U-17 U-19 komandaları üçün maarifləndirmə | 30.11.2023 | İdmançı: 77<br>Məşqçi: 6<br>Həkim: 1 |
| 51. Azərbaycan Qılıncoynatma Federasiyasının idmançıları (yeniyetmələr) üçün maarifləndirmə | 06.12.2023 | İdmançı: 17<br>Məşqçi: 2 |
| 52. “Qəbələ” FK-nın U-15, U-16, U-17, U-19 komandaları üçün maarifləndirmə | 07.12.2023 | İdmançı: 72<br>Məşqçi: 5<br>Həkim: 2 |

# Vebinarlar

| Vebinarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 1. “Zaqatala” FK-nın U-15 və U-17 komandaları üçün maarifləndirmə | 31.01.2023 | 38 |
| 2. “Turan-Tovuz” FK-nın U-19, U-17, U-16 və U-15 komandaları üçün maarifləndirmə | 06.02.2023 | 70 |
| 3. Məsul şəxslər üçün Məkan Məlumatı mövzusunda maarifləndirmə | 15.03.2023 | 15 |
| 4. QTQ-yə daxil olan idmançılar üçün Məkan Məlumatı mövzusunda maarifləndirmə | 15.03.2023 | 15 |
| 5. QTQ-yə daxil olan idmançılar üçün Məkan Məlumatı mövzusunda maarifləndirmə | 16.03.2023 | 10 |
| 6. QTQ-yə daxil olan para idmançılar üçün Məkan Məlumatı mövzusunda maarifləndirmə | 31.03.2023 | 10 |

| Vebinarın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 7. Beynəlxalq QTQ-yə daxil olan para idmançılar üçün Məkan Məlumatı mövzusunda | 11.05.2023 | 10 |
| 8. Beynəlxalq QTQ-yə daxil olan para idmançılar üçün Məkan Məlumatı mövzusunda | 16.05.2023 | 10 |
| 9. III Avropa Oyunları - Məsul şəxslər üçün maarifləndirmə | 15.03.2023 | 15 |
| 10. III Avropa Oyunları - İdmançılar və İKH üçün maarifləndirmə | 06.06.2023 | 20 |
| 11. III Avropa Oyunları - İdmançılar və İKH üçün maarifləndirmə | 07.06.2023 | 16 |
| 12. Avropa Gənclər Olimpiya Festivalı antidopinq maarifləndirmə | 13.07.2023 | 16 |
| 13. Avropa Gənclər Olimpiya Festivalı antidopinq maarifləndirmə | 14.07.2023 | 7 |
| 14. Avropa Gənclər Olimpiya Festivalı antidopinq maarifləndirmə | 14.07.2023 | 10 |
| 15. Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin paraatletika və parabadminton idman növləri üzrə milli komandaların üzvləri üçün | 11.08.2023 | 20 |
| 16. “Turan-Tovuz” FK-nın U-19, U-17, U-16 və U-15 komandaları üçün | 11.12.2023 | 66 |
| 17. Azərbaycan Atletika Federasıyasının idmançıları üçün | 15.12.2023 | 11 |

# Təbliğatlar

| Yarışın adı | Tarix | İştirakçı sayı |
|---|---|---|
| 1. “Heydər Əliyev İli”nə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyində AMADA-nın “Qoy ədalət zəfər çalsın” təbliğat proqramı | 15.04.2023 | 250 |
| 2. “Prezident Kuboku – 2023” beynəlxalq reqatası (Suqovuşan) | 4-7 May (04.05.2023) | 150 |
| 3. Taekvondo üzrə dünya çempionatı | 29 May-4 İyun (29.05.2023) | 200 |
| 4. Atıcılıq üzrə 53-cü dünya çempionatı | 15-31 Avqust (17,18,21.08.2023) | 300 |
| 5. Cüdo üzrə “Böyük dəbilqə” turniri | 22-24 Sentyabr (22.09.2023) | 200 |
| 6. Paracüdo üzrə Qran-pri turniri | 26-27 Sentyabr (26.09.2023) | 100 |

| Tədbirlər – Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi ilə birgə | | |
|---|---|---|
| Tədbirin adı | Tarix | İştirakçı sayı |
| 1.İdmançılar və İKH üçün maarifləndirmə tədbiri | 17.01.2023 | 60 |
| 2. Dünya Çimərlik Oyunlarında iştirakı nəzərdə tutulan idmançılar üçün maarifləndirmə tədbiri | 19.05.2023 | 11 |
| 3. “Təhlükəsiz idman” adlı tədbir | 08.06.2023 | 60 |
| 4. “Peşəkar idman və tibb” kitabının təqdimatı | 05.07.2023 | 60 |
| 5. Avropa Gənclər Olimpiya Festivalına həsr olunmuş maarifləndirmə tədbiri | 12.07.2023 | 60 |



# Elm və araşdırma

# Elm və araşdırma

Antidopinq sistemində elmin rolu çox önəmlidir. Elmi tədqiqatlar dopinq maddələrinin təsirini və onların idmançıların sağlamlığına olan potensial risklərini araşdıraraq, effektli mübarizə strategiyalarının inkişafına kömək edir. AMADA elmi yanaşmalar vasitəsilə antidopinq qaydalarının tətbiqi və monitorinqini daha effektiv şəkildə həyata keçirir. Bu, idmanın ədalətli və sağlam mühitdə inkişaf etməsinə önəm verir.

## Elmi nəşr

Hesabat dövründə AMADA-nın Elm şöbəsinin müdiri Rüfət Efendiyevin "Qlobal antidopinq sisteminə uyğunluğun əldə edilməsi: AMADA nümunəsi" adlı elmi məqaləsi Moldovanın "İctimai səhiyyə, iqtisadiyyat və tibbdə idarəetmə" nəşrində çap olunub.

**http://revistaspemm.md/achieving-compliance-with-the-global-anti-doping-system-the-case-of-amada/**

## Elmi layihə

"İdmançının köməkçi heyətinin təmiz idman dəyərlərinin qorunmasında rolu" adlı layihə üçün sorğu anketi hazırlanıb. Layihəyə start verilməyib.

## Digər fəaliyyət

- 2024-cü il üçün Qadağan Edilmiş Siyahı, Monitorinq Proqramı və müvafiq Əsas Dəyişikliklərin Xülasəsi və İzahlı Qeydlər Azərbaycan dilinə tərcümə olunub;
- Dərmanların tərkib hissələrinin qadağan olunma statusu ilə bağlı 100-dən çox sorğuya cavab verilib;
- II MDB Oyunlarının təşkilatçılar tərəfindən təqdim olunmuş dərman vasitələrinin və tibbi məhsulların formulyarına dair şərh bildirilib;
- TİI-yə dair bir müraciət baxılmaq üçün qəbul olunub.
- 2024-cü il üçün Qadağan Edilmiş Siyahı tam yoxlanılıb və çap üçün Media və kommunikasiya şöbəsinə təqdim edilib.

**Dürüstlük həm doğru danışmaq, həm doğru düşünmək, həm də əməllərdə bunu əks etdirməkdir. Fikrimcə, dürüst idmançı həm əzmkarlığı, həm nizam-intizamı, həm də davranışı ilə nümunə göstərilməlidir. Təmiz idman prinsiplərinə sadiqlik dürüst idmançının karyerasında prioritet təşkil etməlidir.**

AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə



# Testetmə

# Testetmə

Antidopinq sistemində testetmə idman dünyasında ədalətin və dürüstlüyün təmin olunmasında ən vacib və sarsılmaz alətlərdən biridir. İdmanda dopinqə qarşı mübarizə yalnız qaydalar və cəzalarla məhdudlaşmır, burada əsas vasitə testetmədir. Test prosesi vasitəsilə, idmançıların bədənində qanunsuz maddələrin olub-olmaması yoxlanılır, idman yarışlarının ədalətli keçirilməsinə zəmanət verilir.

**Ümumi test sayı - 1187**



**Yarışdan kənar – 587**



**Yarış müddətində - 600**






**Ümumi nümunə sayı – 1519**

# Milli Test Proqramı çərçivəsində nümunə sayı

| Ay | Ümumi | Sidik | Qan | İBP |
|---|---|---|---|---|
| Yanvar | 127 | 88 | 19 | 20 |
| Fevral | 173 | 97 | 38 | 38 |
| Mart | 107 | 103 | 1 | 3 |
| Aprel | 147 | 111 | 18 | 18 |
| May | 155 | 116 | 16 | 23 |
| İyun | 150 | 109 | 14 | 27 |
| İyul | 64 | 64 | 0 | 0 |
| Avqust | 30 | 21 | 0 | 9 |
| Sentyabr | 91 | 83 | 0 | 8 |
| Oktyabr | 112 | 76 | 16 | 20 |
| Noyabr | 78 | 78 | 0 | 0 |
| Dekabr | 285 | 253 | 27 | 5 |

# Toplanmış nümunələrin respublika üzrə bölünməsi

Milli Test Proqramı çərçivəsində AMADA-nın yurisdiksiyasına daxil olan idmançıları Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən ucqar məkanlarda il ərzində dopinq nəzarəti testlərindən keçirir. Həmçinin beynəlxalq əməkdaşlıq çərçivəsində AMADA-nın yurisdiksiyası altında olan, lakin xarici ölkələrdə yaşayan və/və ya məşq edən idmançıların dopinq nəzarəti testlərindən keçirilməsini digər antidopinq təşkilatlarına sifariş edir.

| Şəhər/rayon/region | Ümumi | Sidik | Qan | İBP |
|---|---|---|---|---|
| Göy-göl | 1 | 1 | 0 | 1 |
| Xızı | 17 | 17 | 0 | 11 |
| Mingəçevir | 24 | 24 | 1 | 6 |
| Gəncə | 1 | 1 | 0 | 0 |
| Qobustan | 1 | 0 | 1 | 0 |
| Quba-Qusar | 12 | 12 | 0 | 0 |
| | 56 | 55 | 2 | 18 |



# QTQ və TQ

Məkan məlumatı yarışdan kənar zamanı effektiv planlaşdırılma və öncədən xəbərdarlıq olmadan test keçirmək üçün əvəzsiz rol oynayır. AMADA-nın Qeydiyyata alınmış Test Qrupuna və Test Qrupuna daxil edilən idmançılar məlumatların doğru, dəqiq və vaxtında təqdim edilməsinin vacibliyi, həmçinin məkan məlumatının düzgün təqdim edilməməsi və buraxılmış testlərin fəsadları barədə müvafiq təlimlərdən keçirlər. Onlar məlumatları ildə 4 dəfə, hər növbəti rübün əvvəlində ADAMS sisteminə daxil etməlidir və dəyişikliklər barədə dərhal AMADA-nı məlumatlandırmalıdırlar.

| Qeydiyyata alınmış Test Qrupu | Sayı |
|---|---|
| İdmançılar | 82 |
| İdman növləri | 18 |

| Qeydiyyata Alınmış Test Qrupunda Kişi/Qadın | Sayı |
|---|---|
| Kişilər | 59 |
| Qadınlar | 23 |

| QTQ-yə daxil olan Olimpiya, qeyri-Olimpiya, Paralimpiya idman növləri üzrə idmançılar | Sayı |
|---|---|
| Olimpiya idman növləri üzrə idmançıların sayı | 57 |
| Qeyri-Olimpiya idman növləri üzrə idmançıların sayı | 12 |
| Paralimpiya idman növləri üzrə idmançıların sayı | 13 |

| Qeydiyyata Alınmış Test Qrupunda Milli/Beynəlxalq Səviyyəli İdmançılar | Sayı |
|---|---|
| Milli səviyyəli idmançılar | 11 |
| Beynəlxalq səviyyəli idmançılar | 71 |

| Test Qrupu | Sayı |
|---|---|
| İdmançılar | 3 |
| İdman növləri | 1 |

| TQ-yə daxil olan Olimpiya, qeyri-Olimpiya, Paralimpiya idman növləri üzrə idmançılar | Sayı |
|---|---|
| Olimpiya idman növləri üzrə idmançıların sayı | 0 |
| Qeyri-Olimpiya idman növləri üzrə idmançıların sayı | 3 |
| Paralimpiya idman növləri üzrə idmançıların sayı | 0 |

| Test Qrupunda Kişi/Qadın | Sayı |
|---|---|
| Kişilər | 3 |
| Qadınlar | 0 |

| Test Qrupunda Milli/Beynəlxalq səviyyəli idmançılar | Sayı |
|---|---|
| Milli səviyyəli idmançılar | 0 |
| Beynəlxalq səviyyəli idmançılar | 3 |

Yarış müddətində testlər idman yarışı zamanı həyata keçirilir. Azərbaycan Milli Antidopinq Qaydalarının yürisdiksiyası ilə əhatə olunan hər bir idman tədbiri zamanı dopinq nəzarəti testi keçirilə bilər. 2023-cü il ərzində AMADA milli əhəmiyyətli yarışlar çərçivəsində dopinq nəzarəti testlərini keçirib.

| No | İdman | Milli çempionatlarda iştirak |
|---|---|---|
| 1. | Sambo | Sambo idmanı üzrə gənclər və böyüklər arasında Azərbaycan çempionatı |
| 2. | Atletika | Atletika idmanı üzrə Bakı çempionatı |
| 3. | Atletika | Atletika idmanı üzrə Azərbaycan qış çempionatı |
| 4. | Güləş | Gənc güləşçilər arasında Azərbaycan çempionatı |
| 5. | Futbol | Futbol üzrə Azərbaycan Premyer Liqası oyunları |
| 6. | Futbol | Futbol üzrə Azərbaycan çempionatı |
| 7. | Voleybol | Voleybol üzrə Azərbaycan çempionatı |
| 8. | Üzgüçülük | Üzgüçülük üzrə yay Azərbaycan çempionatı |
| 9. | Gimnastika | Bədii gimnastika üzrə Azərbaycan çempionatı |
| 10. | Atletika | Atletika idmanı üzrə yay Azərbaycan çempionatı |
| 11. | Velosiped | Velosipedin şosse növü üzrə Azərbaycan kuboku |
| 12. | Velosiped | Velosipedin trek növü üzrə Azərbaycan çempionatı |
| 13. | Həndbol | Həndbol üzrə Azərbaycan çempionatı |
| 14. | Ağırlıqaldırma | Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı |
| 15. | Ağırlıqaldırma | Ağırlıqqaldırma üzrə gənclər arasında Azərbaycan çempionatı |
| 16. | Velosiped | Velosipedin şosse növü üzrə Azərbaycan çempionatı |
| 17. | Basketbol | Basketbol üzrə Azərbaycan çempionatı |
| 18. | Futzal | Futzal üzrə Azərbaycan çempionatı |
| 19. | Cüdo | Cüdo üzrə U-23 Azərbaycan çempionatı |
| 20. | Cüdo | Cüdo üzrə U-21 Azərbaycan çempionatı |
| 21. | Güləş | Güləş üzrə U-20 Azərbaycan çempionatı |
| 22. | Üzgüçülük | Üzgüçülük üzrə Azərbaycan kuboku |
| 23. | Badminton | Badminton üzrə Azərbaycan çempionatı |
| 24. | Boks | Gənc boksçular arasında ölkə birinciliyi |
| 25. | Boks | Boks üzrə Azərbaycan çempionatı |
| 26. | Avarçəkmə | Avarçəkmə və kanoe üzrə Azərbaycan çempionatı |
| 27. | Qılıncoynatma | Qılıncoynatma üzrə Azərbaycan çempionatı |
| 28. | Qılıncoynatma | Gənclər arasında qılıncoynatma üzrə Azərbaycan birinciliyi |
| 29. | Atletika | Aerobika üzrə 7-ci ölkə çempionatı və açıq Bakı birinciliyi |

| No | İdman | Milli çempionatlarda iştirak |
|---|---|---|
| 30. | Atletika | Akrobatika üzrə 28-ci Azərbaycan çempionatı və Bakı birinciliyi |
| 31. | Gimnastika | Kişi idman gimnastikası üzrə 28-ci Azərbaycan çempionatı və açıq Bakı birinciliyi |
| 32. | Gimnastika | Qadın idman gimnastikası üzrə 7-ci Azərbaycan çempionatı və Bakı birinciliyi |
| 33. | Kikboks | Kikboksinq üzrə Azərbaycan çempionatı |
| 34. | Atıcılıq | Atıcılıq üzrə Azərbaycan çempionatı |
| 35. | Tennis | Stolüstü tennis üzrə Azərbaycan çempionatı |
| 36. | Taekvondo | Taekvondo üzrə Azərbaycan birincilikləri və çempionatı |
| 37. | Triatlon | Triatlon üzrə Azərbaycan çempionatı |
| 38. | Ağırlıqqaldırma | Ağırlıqqaldırma üzrə gənclər arasında ölkə birinciliyi |
| 39. | Ağırlıqqaldırma | Ağırlıqqaldırma üzrə Azərbaycan kuboku |
| 40. | Güləş | Güləş üzrə Azərbaycan çempionatı |

2023-cü il ərzində Azərbaycan Respublikasında keçirilən müxtəlif idman növləri üzrə bütün irimiqyaslı beynəlxalq yarışlarda (məs. dünya çempionatlarında, dünya kuboklarında) AMADA nümunə toplama heyəti qismində uğurla iştirak edib.

| No | İdman | Beynəlxalq çempionatlarda iştirak |
|---|---|---|
| 1. | Atıcılıq | Atıcılıq üzrə dünya kuboku yarışları |
| 2. | Atıcılıq | Atıcılıq üzrə dünya çempionatı |
| 3. | Şahmat | Şahmat üzrə dünya kuboku yarışları |
| 4. | Gimnastika | Bədii gimnastika üzrə 39-cu Avropa çempionatı |
| 5. | Gimnastika | Bədii gimnastika üzrə dünya kuboku yarışları |
| 6. | Gimnastika | İdman gimnastika üzrə dünya kuboku yarışları |
| 7. | Gimnastika | Batut gimnastikası üzrə dünya kuboku yarışları |
| 8. | Cüdo | Cüdo üzrə “Böyük dəbilqə” turniri |
| 9. | Həndbol | Qadın həndbolçular arasında Avropa çempionatının seçmə mərhələsi |
| 10. | Taekvondo | Taekvondo üzrə dünya çempionatı |
| 11. | Güləş | Hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatı |

# Beynəlxalq Əməkdaşlıq

AMADA beynəlxalq əməkdaşlıq çərçivəsində digər antidopinq təşkilatları, beynəlxalq federasiyalar, Beynəlxalq Test Agentliyi üçün testetmə sahəsində nümunə toplama üzrə səlahiyyətli qurum olaraq xidmət göstərir. Hazırda AMADA müxtəlif beynəlxalq idman federasiyaları, test agentlikləri və beynəlxalq təşkilatlar ilə əməkdaşlıq edir.

| AMADA-ya həvalə olunmuş beynəlxalq sifarişlər | Sayı |
|---|---|
| Yarış zamanı | 224 |
| Yarışdan kənar zamanı | 42 |
| Ümumi test sayı | 266 |

| AMADA-nın beynəlxalq sifarişlə test etdiyi idman növləri | Test |
|---|---|
| Gimnastika | 45 |
| Atıcılıq | 83 |
| Güləş | 24 |
| Cüdo | 13 |
| Ağır Atletika | 3 |
| Boks | 2 |
| Karate | 2 |
| Taekvondo | 80 |
| Şahmat | 10 |
| Həndbol | 4 |

# Nümunə toplama heyəti

AMADA nümunə toplama heyətinin daimi inkişafını təkmilləşdirmək üçün aylıq təlimlər təşkil edir. Təlimlərdə onlar antidopinq sahəsində yenilikləri öyrənir, risk ssenariləri üzrə məşğələlər edir və bir-biri ilə təcrübə mübadiləsi aparırlar. Bütün təlimlər WADA Məcəlləsinə və Testetmə və Təhqiqatlar üzrə Beynəlxalq Standarta əsasən keçirilir.

AMADA-nın bütün DNİ-ləri Azərbaycan, rus, türk, ingilis dillərində səlis danışır. Bundan əlavə, bəzi DNİ-lər həmçinin alman və ispan dillərini bilir.

AMADA-nın bütün QTİ-ləri tibb təhsilinə malikdirlər.

| Nümunə Toplama Heyəti | |
|---|---|
| Dopinq Nəzarəti İnspektoru | 14 |
| Qan Toplama İnspektoru | 4 |

9 QADIN NÜMUNƏ TOPLAMA HEYƏTİ

9 KİŞİ NÜMUNƏ TOPLAMA HEYƏTİ



# Antidopinq qayda pozuntuları

# AQP sayı




2 AQP yarışdan kənar müddətdə

5 AQP yarış müddətində

| İdman növləri üzrə AQP | |
|---|---|
| Boks | 1 |
| Pauerliftinq | 1 |
| Triatlon | 3 |
| Kikboksinq | 1 |
| Cüdo | 1 |

| AQP-nin növləri | Sayı |
|---|---|
| İdmançının nümunəsində qadağan edilmiş maddə və ya onun metabolitləri və ya markerlərinin mövcudluğu | 5 |
| İdmançı tərəfindən nümunə toplanmasından yayınma, imtina və ya nümunəni təqdim etməmək | 1 |
| İdmançı tərəfindən məkan məlumatı pozuntusu | 1 |

| Qadağan edilmiş maddə kateqoriyası | |
|---|---|
| Metabolik modulyatorlar | 3 |
| Diuretiklər | 2 |

# Sanksiyalar

| Diskvalifikasiya müddəti | |
|---|---|
| 4 idmançı | 8 ay |
| 2 idmançı | 2 il |
| 1 idmançı | 4 il |

# İctimaiyyətə açıqlama

Hesabat dövründə 3 AQP barədə məlumat AMADA-nın rəsmi internet səhifəsində yerləşdirilib.



# Nəticələrin emalı

# Nəticələrin emalı

Test müddəti üzrə AQP nəticələrin emalı idmançının mümkün antidopinq qayda pozuntusu barədə bildirişin verilməsindən başlayaraq, iddia və birinci instansiya və ya apellyasiya üzrə dinləmə prosesinin sonu ( apellyasiya şikayəti verildikdə) daxil olmaqla, məsələnin tam həlli arasında müddəti əhatə edən prosesdir. Nəticələrin emalı prosesi AMADA-nın Hüquq şöbəsi tərəfindən həyata keçirilir və ədalət, bitərəflik və ağlabatan müddət prinsiplərinə əsaslanır. Antidopinq qayda pozuntusunun həlli mexanizmi Hüquq şöbəsi tərəfindən idarə edilən AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası, əməliyyat və təşkilati cəhətdən müstəqil olan birinci və apellyasiya instansiyaları (İntizam və Apellyasiya komitələrinin) tərəfindən həyata keçirilir. Ümumi qayda olaraq, idmançı dinləmə üçün hüququndan imtina edən zaman və ya AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası tərəfindən təklif edilən sanksiyaya razılığını verdiyi zaman AMADA qərarverici qurum hesab olunur. Əks halda, idmançı işi mübahisələndirirsə, bu zaman dinləmə və qərar verilməsi üçün iş İntizam Komitəsinə ötürülür (Apellyasiya Komitəsinə apellyasiya şikayəti vermək hüququ saxlanılmaqla). Beynəlxalq səviyyəli idmançıların işləri barədə qərarın qəbul edilməsi üçün İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinə (İAM) apellyasiya şikayəti verilə bilər.

# Hüquqi yardım

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada ittiham edilən və mümkün sanksiya ilə üzləşən şəxsə öz müdafiə xərclərini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman müvafiq hüquqi yardımın göstərilməsi haqqında müddəa mövcuddur. Antidopinq icraatının məqsədi cəzalandırmaq deyil, ədalətin bərqarar olunması və təmiz idman prinsiplərinin müdafiə olunmasıdır. Antidopinq sisteminin tələbləri ilə idmançıların müdafiə edilməsi zərurətinin tarazlaşdırılmasının yollarından biri idmançılara müvafiq hüquqi yardımın təmin edilməsidir. Bu məqsədlə, AMADA pulsuz hüquqi yardım proqramını həyata keçirir. Proqram çərçivəsində antidopinq qayda pountusunu törətmiş və hüquqi yardıma ehtiyacı olan idmançılara AMADA ilə əməkdaşlıq edən hüquq şirkəti tərəfindən pulsuz hüquq xidmətləri göstərilir.

# Medalların geri qaytarılması

Antidopinq qayda pozuntusunu törətmiş və barəsində sanksiyanın tətbiq edilməsi qərarı qüvvəyə minən bütün idmançıların dopinq nəzarətinin keçirildiyi zaman əldə etdiyi nəticələri ləğv edilməli və müvafiq olaraq medallar geri alınmalıdır. Bununla yanaşı, onların əvəzinə həmin nəticəyə avtomatik nail olmuş idmançıların yerləri bərpa edilməli və müvafiq medallar təqdim edilməlidir.

Dopinq nəzarətinin əsas məqsədi idmanda ədalət prinsipinin təmin edilməsi, təmiz idmanın və idmançıların hüquqlarının qorunmasıdır. Hər hansı bir idmançının qadağan edilmiş maddə və ya üsullardan istifadə etməklə əldə etdiyi nəticələr idmanda ədalət və bərabər imkanlar prinsipinin, habelə yarışlarda iştirak edən digər idmançıların hüquqlarının pozulmasıdır. Bu cür hallarla ciddi mübarizə aparmaqla yanaşı, yarışlarda iştirak edən digər idmançıların hüquqlarının bərpası vacib məsələlərdən biridir. Bu, yarışlarda iştirak edən digər idmançıların karyerası, idman reytinqi və beynəlxalq yarışlarda iştirak imkanları baxımından əhəmiyyətlidir. Bu səbəbdən qadağan edilmiş maddə və ya üsullardan istifadə edən idmançıların antidopinq qayda pozuntusu törətdikləri yarışlarda əldə edilən nəticələri ləğv edilməli və rotasiya qaydasında sıralama yenidən tərtib olunmalıdır. İdmançıların antidopinq qayda pozuntuları nəticəsində əldə etdikləri xalların və medalların rotasiya qaydasında ləğv edilməsi, geri qaytarılması və yenidən hesablanması üçün AMADA Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və müvafiq respublika idman federasiyaları ilə əməkdaşlıq edir.

İdman - bəşəriyyətin ən ali dəyərlərindən biri olaraq - ruhun və bədənin mükəmməlliyə can atdığı bir meydandır. Bu meydan isə ədalət prinsipləri üzərində qurulmalıdır. Hər bir idmançının qələbəsi, yalnız öz təbii bacarığı və fədakarlığının məhsulu olmalıdır. AMADA-nın missiyası məhz bu ali dəyərləri qoruyaraq idmançıları dopinqdən uzaq saxlamaq və onların uğurlarına kölgə salan hər cür qanunsuz vasitələrə qarşı qətiyyətlə mübarizə aparmaqdır.





# Araşdırma və təhqiqatlar

# Təhqiqat

Dopinqə qarşı mübarizədə uğur əldə etmək yalnız test və nəzarətlə məhdudlaşmır. Əslində, bu prosesin təməlində dayanan əsas amillərdən biri də təhqiqatdır. Təhqiqat antidopinq sistemində yalnız pozuntuların müəyyən edilməsi üçün deyil, həm də onların kökündə duran səbəblərin araşdırılması və qarşısının alınması üçün vacib bir vasitədir.

Antidopinq Qayda Pozuntusu araşdırması




Məkan məlumatı xətası




| | |
|---|---|
| Dopinq nəzarəti protokolu üzrə yoxlama | 227 |
| İfşaetmə məlumatların sayı | 5 |
| Hədəfli testlər | 59 |

**Düşünürəm ki, idman ədalət, dostluq və sağlamlıq prinsiplərinə uyğun inkişaf etdirilməlidir. Dopinqə qarşı mübarizənin effektivliyi üçün beynəlxalq əməkdaşlığın, idmançıları və məşqçiləri dopinqin zərərləri barədə məlumatlandırmaq üçün təhsilin müstəsna xidmətləri var. Antidopinq strategiyaları isə elmi tədqiqatlara əsaslanmalı və yeni metodların inkişaf etdirilməsinə yönəlməlidir.**

WADA-nın baş direktoru Olivier Niggli

# Tədbir

Yanvarın 26-da Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin birgə təşkilatçılığı ilə “Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə qurumlararası əməkdaşlığın rolu” mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Daxili İşlər, Səhiyyə, Ədliyyə, Elm və Təhsil, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Azərbaycan Milli Antidopinq Agentliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, TƏBİB və digər qurumların nümayəndələri iştirak ediblər.

# İştirak

AMADA-nın Təhqiqat şöbəsinin iki əməkdaşı Beynəlxalq Test Agentliyi (ITA) tərəfindən keçirilən “IDCO Training Program” adlı təlimdə iştirak edib. Təlimin sonunda yüksək imtahan nəticəsi əldə olunub və hər iki əməkdaş Dopinq Nəzarəti İnspektoru üzrə beynəlxalq sertifikatla təmin olunub.

WADA-nın Müstəqil araşdırma və təhqiqatlar departamenti Avropanın müxtəlif ölkələrindən hüquq-mühafizə, polis və gömrük orqanlarının və milli antidopinq təşkilatlarının nümayəndələri üçün seminar keçirib. Seminarda AMADA-nın Təhqiqat şöbəsinin üç əməkdaşı iştirak edib. Seminarın sonunda AMADA-nın əməkdaşlarına müvafiq sertifikatlar təqdim olunub. Seminar qitədə araşdırma imkanlarını inkişaf etdirmək məqsədi daşıyıb.

AMADA təhqiqat üçün daxil olan məlumatları müxtəlif kanallar vasitəsi ilə əldə edir. Həmin məlumatların 12 faizi AMADA-nın veb saytında anonim məlumat formasının doldurulması, 88 faizi AMADA-nın elektron ünvanına müraciətlərin araşdırılması ilə əldə edilib.






# “Susma!” Onlayn müraciət formu

## Ədalət sizin cəsarətinizlə başlayır!




Dopinqlə mübarizəyə qarşı yönəlmiş hər hansı bir antidopinq qayda pozuntusu və ya  hər hansı bir hərəkət yaxud hərəkətsizlik barədə məlumat verə bilərsiniz.

Bizə göndərdiyiniz məlumatların məxfi qalmasına əmin olmaq üçün aşağıdakı  qaydalara  əməl etməyi təklif edirik:

- Bildirəcəyiniz məxfi məlumatı şəxsi kompüterinizdən daxil edin.
- Ümumi internet şəbəkəsinə və ya daxili şəbəkəyə bağlı olan kompüterdən istifadə etməyin.
- Əlaqə üçün şəxsi məlumatlarınızı bildirmək istəmədiyiniz halda, yüklədiyiniz hər hansı bir faylın xüsusiyyətlərində şəxsi məlumatlarınızın olmamasını yoxlayın.



# Əməkdaşlıq və tərəfdaşlıq

# Əməkdaşlıq və tərəfdaşlıq

## Ölkədaxili əlaqələndirmə

Əməkdaşlıq və koordinasiyalı yanaşmanı rəhbər tutaraq AMADA maraqlı tərəflərin təcrübəsini tanıyır və qəbul edir. Öz növbəsində həmin tərəflər dopinq təhlükəsinin qarşısını almaq üçün vahid mərkəzləşdirilmiş təşkilatla işləməkdən faydalanır.

AMADA dopinq təhlükəsinin bütün elementləri ilə mütəşəkkil mübarizə aparır. Bura hüquq-mühafizə orqanları, gömrük və sərhəd xidməti qurumları, tənzimləyici orqanlar, akademik təşkilatlar, idman və səhiyyə sektoru daxildir.

AMADA antidopinq cəmiyyətinin kollektiv bacarıqlarını inkişaf etdirmək üçün Ümumdünya Antidopinq Agentliyi və digər beynəlxalq antidopinq təşkilatları ilə əlaqələri möhkəmləndirməyə davam edəcək ki, Azərbaycan idmançıları dünyada bütün olduqları yerlərdə bərabər şəraitdə mübarizə apara bilsinlər.

AZE
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

### Gənclər və İdman Nazirliyi

AMADA Azərbaycan antidopinq ictimaiyyətinin əsas tərəflərindən biri və ölkədə bütün idman fəaliyyətini idarə edən qurum olan Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

AZERBAIJAN

### Milli Olimpiya və Paralimpiya komitələri

Milli Olimpiya və Paralimpiya komitələri ilə bərabər tərəfdaşlıq ruhunda əməkdaşlıq idmanda dopinqlə mübarizə üçün zəruridir.

### Hüquq-mühafizə orqanları

Qanuna əsasən, AMADA hüquq-mühafizə orqanları ilə antidopinq qayda pozuntuları və dopinq nəzarəti üzrə zəruri məlumat mübadiləsini həyata keçirir. Əlavə olaraq dopinq maddələri, xüsusilə anabolik steroidlər əksər hallarda qanunsuz idxal edilir və “qara bazar” da satılır. Belə qanunsuz fəaliyyətin qarşısının alınması üçün səyləri birləşdirmək məqsədilə AMADA Daxili İşlər Nazirliyi, INTERPOL-un Milli Mərkəzi Bürosu, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq edir.

## Milli federasiyalar

Respublika idman federasiyaları öz yurisdiksiyaları çərçivəsində hər bir idman növünü idarə edən təşkilatlardır. Dopinqlə müştərək mübarizə aparmaq, o cümlədən təmiz idmanı təşviq etmək, idmançıları və İKH-ni məlumatlandırmaq məqsədilə AMADA bütün milli federasiyalarla əməkdaşlıq edir, onların Məcəllə və beynəlxalq standartlara riayət etməsinin monitorinqini aparır.

# Narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə

Azərbaycan Milli Antidopinq Agentliyi ölkə ərazisində antidopinq siyasətini aparır və beynəlxalq standarlara uyğun olaraq antidopinq proqramını həyata keçirir. Antidopinq proqramına müxtəlif idman növləri və yaş qruplarından ibarət olan idmançılar arasında maarifləndirmə işlərinin aparılması daxildir.

Bir sıra narkotik vasitələr və psixotrop maddələrin qadağan edilmiş siyahıda olmasını nəzərə alaraq, AMADA bu sahədə idmançılar üçün mühazirələr və seminarlar keçirir, onlara qadağan edilmiş maddələrin, o cümlədən narkotik vasitə və psixotrop maddələrin istifadəsinin yaratdığı fəsadları vurğulayır. Agentliyin tədbirlərinin əhatə dairəsi idmançılar və köməkçi heyət, habelə idman məktəblərində təhsil alan gənclərdir. Tədbirlər respublika idman federasiyalarında, idman klublarında, habelə digər idman subyektləri və təhsil müəssisələrində keçirilir.

Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən yuxarıda qeyd olunan Dövlət Proqramına narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi məqsədilə daxil edilib.

Dövlət Proqramına qoşulmaqla, AMADA idmançılar və köməkçi heyət, idman və digər məktəblərdə gənclər arasında narkotiklərin zərəri və təsirləri, antinarkomaniya barədə maarifləndirmə işlərini, mühazirələrin və seminarların keçirilməsi, ictimaiyyətin məlumatlandırılması tədbirlərini həyata keçirir.

İl ərzində antinarkotik təbliğatı və maarifləndirmə məqsədilə idman federasiyaları, idmançılar və onların köməkçi heyəti üçün 74 maarifləndirmə tədbiri keçirilib. Ümumilikdə bu tədbirlər təxminən 3000-dək şəxsi əhatə edərək onların maarifləndirilməsini təmin edib.

AMADA antinarkotik fəaliyyətini Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə qurub.

# Beynəlxalq münasibətlər

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Agentlik milli antidopinq təşkilatı kimi hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

## Ümumdünya Antidopinq Agentliyi (WADA)

WADA idman hərəkatı və dövlətlər tərəfindən təsis edilərək maliyyələşdirilən beynəlxalq müstəqil qurumdur. Əsas fəaliyyət istiqamətlərini elmi tədqiqat, təhsil, antidopinq fəaliyyətinin inkişafı, eləcə də bütün idman növləri və bütün ölkələrdə antidopinq siyasətlərini birləşdirən sənəd olan Ümumdünya Antidopinq Məcəlləsinin monitorinqi təşkil edir. AMADA öz gündəlik fəaliyyətində WADA ilə sıx əməkdaşlıq edir və qurumun tədbirlərində iştirak edir. Bu AMADA-ya ölkənin Məcəllə və Beynəlxalq Standartlara riayət statusunu dəstəkləməyə və eyni zamanda, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfə verməyə kömək edir.

## UNESCO

Azərbaycan 23 iyul 2007-ci il tarixində UNESCO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyasının tərəfdaşı olub. Konvensiyanın məqsədi beynəlxalq hüququn dopinqlə mübarizəyə tətbiq edilməsidir. Konvensiya Ümumdünya Antidopinq Məcəlləsini tanıyır, onun effektiv tətbiqini həmçinin dövlətlərin qlobal şəkildə dopinq probleminin həlli üçün istifadə edə biləcəkləri hüquqi çərçivəni təmin edir. UNESCO-nun uyğunluq monitorinqi qaydalarına əsasən, AMADA, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Milli Olimpiya Komitəsindən ibarət Milli Uyğunluq Platforması yaradılıb. AMADA ölkənin uyğunluğunun əlaqələndirilməsi üzrə Milli Əlaqələndirici təyin edilib.

## Avropa Şurası

Avropa Şurasının Antidopinq Konvensiyası 1 mart 1990-cı ildə qüvvəyə minib. Konvensiya antidopinq qanunvericiliyinin əlaqələndirilməsi məqsədilə məcburi qaydaları müəyyən edir. Azərbaycan Konvensiya və onun Əlavə Protokolunu müvafiq olaraq 4 noyabr 2003-cü ildə və 11 fevral 2004-cü ildə ratifikasiya edib və bu sənədlər 2004-cü ildə qüvvəyə minib. AMADA Avropa Şurasının Monitorinq Qrupu (T-DO) və Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsinin (CAHAMA) iclas və fəaliyyətlərində, o cümlədən müxtəlif işçi qruplarında iştirak edərək onlarla sıx tərəfdaşlıq edir.

## Beynəlxalq Test Agentliyi (ITA)

12 iyul 2019-cu il tarixində AMADA və ITA arasında əməkdaşlıq müqaviləsi imzalanıb. AMADA-nın ITA ilə tərəfdaşlığı testkeçirmə, araşdırma, idmançıların bioloji pasportları sahələrində məlumat və təcrübə mübadiləsi, eləcə də digər qarşılıqlı maraq təşkil edən sahələrdə əməkdaşlığı əhatə edir. Müqavilə, həmçinin AMADA-nın, ITA-nın xahişi ilə beynəlxalq qurumun adından Nümunə Toplanması üçün Səlahiyyətli Qurum kimi çıxış etməsini nəzərdə tutur. Sözügedən müqavilənin imzalanması qabaqcıl təcrübədən faydalanmaq məqsədilə beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi və daha yüksək nəticələrin əldə edilməsi üçün milli və beynəlxalq antidopinq səylərinin koordinasiyası baxımından əhəmiyyətlidir.

## Milli Antidopinq Təşkilatları İnstitutu (iNADO)

AMADA Milli Antidopinq Təşkilatları İnstitutunun üzvüdür. İnstitut dünyanın 100-dən çox milli antidopinq təşkilatını əhatə edir. İnstitut çərçivəsində AMADA antidopinq sahəsində digər təşkilatlarla məlumat mübadiləsi aparır və dopinqlə mübarizə istiqamətində müxtəlif təşəbbüs və layihələrdə iştirak edir.

## Milli antidopinq təşkilatları (NADO) və nümunə toplanması üçün səlahiyyətli qurumlar

AMADA test keçirilməsini daha effektiv planlaşdırma və daha yaxşı məlumat mübadiləsi məqsədilə digər milli antidopinq təşkilatları və özəl nümunə toplama üçün səlahiyyəti olan qurumlarla sıx əməkdaşlıq edir. AMADA 2023-cü ildə Keniya, Yaponiya və Bolqarıstan Milli Antidopinq təşkilatları ilə əməkdaşlıq müqavilələri imzalayıb, həmçinin Almaniyada yerləşən beynəlxalq nümunə toplama üçün səlahiyyətli qurum olan “PWC” şirkəti, həmçinin Beynəlxalq Test Agentliyi ilə daima olaraq əməkdaşlıq edir.

# 2023-cü ildə qarşılıqlı əməkdaşlıq



16.05.2023
Beynəlxalq Atıcılıq İdmanı Federasiyası

14.07.2023
Bolqarıstan Antidopinq Mərkəzi

19.05.2023
Keniya Antidopinq Agentliyi

21.07.2023
Avropa Həndbol Federasiyası

13.06.2023
Yaponiya Antidopinq Agentliyi

16.11.2023
Dünya Hərbi İdman Şurası




# Media siyasəti

# Media

Antidopinq siyasəti yalnız idmançıların ədalətli mübarizəsini təmin etmək məqsədini güdmür, eyni zamanda cəmiyyətin sağlamlığını qorumaq və idman sahəsində dürüstlük mühitini yaratmaq baxımından da vacibdir. Bu kontekstdə medianın rolu böyük əhəmiyyət kəsb edir.

Medianın dopinq əleyhinə mübarizədəki funksiyaları arasında informasiya yayımı, maarifləndirmə və ictimaiyyətin diqqətini cəlb etmək ön plana çıxır. Müxtəlif media platformaları vasitəsilə dopinqin zərərləri, hüquqi nəticələri və sağlamlığa olan təsirləri barədə məlumatlar yayımlanır. Bu, idmançılara, məşqçilərə və idman ictimaiyyətinə dopinqin ciddi nəticələrini başa düşməyə kömək edir.

AMADA-nın media siyasətinin əsasını şəffaflıq, hesabatlılıq və informasiya əlçatanlığı təşkil edir. Media ilə əməkdaşlıq həm də antidopinq maarifləndirilməsi baxımından vacibdir. Dopinq nəzarətinin və təmiz idman dəyərlərinin əhəmiyyətini ictimaiyyətə dolğun çatdırılması üçün medianın imkanları çox genişdir və AMADA bu imkanlardan maksimum faydalanmağa çalışır. Mətbuatla əməkdaşlığın mühüm istiqamətlərindən biri də, idman jurnalistlərinin antidopinq sahəsi ilə bağlı bilik və məlumatlarının artırılmasıdır. Bu, antidopinq sahəsi ilə bağlı hazırlanan xəbərlərin düzgün və dolğun olması ilə yanaşı, mediada antidopinq maarifləndirməsinin peşəkar və effektli şəkildə aparılması baxımından da vacibdir.

## “Antidopinq maarifləndirməsində medianın rolu” mövzusunda tədbir

AMADA Milli Mətbuat Günü ərəfəsində idman mətbuatının nümayəndələri üçün “Antidopinq maarifləndirməsində medianın rolu” mövzusunda tədbir keçirib.Tədbirdə ədalətli və təmiz idmanın təbliği və antidopinq maarifləndirməsində mətbuatın rolu və əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində ətraflı müzakirələr aparılıb.

## İdman qurumlarının mətbuat katibləri üçün antidopinq maarifləndirmə seminarı

AMADA ölkədə fəaliyyət göstərən idman qurumlarının mətbuat katibləri üçün antidopinq maarifləndirmə seminarı təşkil edib. Əsas antidopinq anlayışları, antidopinq icraatlarının hüquqi aspektləri və qida əlavələrinin yaratdığı risklər mövzusunda keçirilən tədbirdə ölkədə fəaliyyət göstərən idman federasiyaları və peşəkar futbol klublarının mətbuat katibləri üçün xüsusi təqdimatlar edilib.

# “Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər

AMADA Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar “Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər həyata keçirib. Ulu Öndər Heydər Əliyevin “Qoy ədalət zəfər çalsın!” sözlərini şüar seçən AMADA-nın keçirdiyi tədbirlər ölkənin bir çox regionlarını və idman növlərini əhatə edib.

















# Ənənəvi media ilə iş

Hesabat dövründə 19 press-reliz hazırlanaraq ölkənin aparıcı KİV-ində yerləşdirilməsi təmin olunub. Bundan əlavə, yerli televiziya kanalları üçün maarifləndirici süjetlər hazırlanıb. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi ilə AMADA-nın birgə ərsəyə gətirdiyi "İdmanda dopinq bəlası" sənədli filminin "İdman TV"də yayımı təmin edilib.

# Sosial media ilə iş

Antidopinq maarifləndirməsinin ən mühüm vasitələrindən biri də sosial mediadır. Sosial medianın geniş izləyici kütləsinə çıxışını nəzərə alaraq AMADA sosial media platformalarından fəal şəkildə istifadə edir. AMADA-nın Facebook, Instagram, Twitter və LinkedIn sosial şəbəkələrindəki hesablarının aktiv şəkildə istifadəsi ümumi media siyasətinin tərkib hissəsidir. Sosial şəbəkələrdə çoxlu sayda informasiya və maarifləndirmə xarakterli paylaşımlar edilir.

Hesabat dövründə sosial şəbəkələrdə ümumilikdə 199 paylaşım edilib. Həmin 199 paylaşımın 57-si video, 142-si isə vizual olub. Bundan əlavə, il ərzində AMADA-nın TikTok hesabı aktiv edilib və sosial mediadakı paylaşımların dizaynlarında dəyişikliklər aparılıb.

**199 Paylaşım**

57 video

142 vizual



# Gələcəyimiz təmiz idmanda, gücümüz isə birliyimizdədir!



AMADA
STAY CLEAN